AZƏRBAYCAN RESPUBLİKASININ

SƏHİYYƏ NAZİRİ

Ə M R

№ 10

Bakı şəhəri "12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 226 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrasının təmin edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 12.01.11 tarixli 10
nömrəli əmri ilə təsdiq edilmişdir

## "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1.Tədbirlər Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | | |
| 1.1. | Vərəm əleyhinə tibb müəssisələrinin fəaliyyətinin ÜST-ün vərəmlə mübarizə strategiyasına uyğun olaraq təkmilləşdirilməsi | TYTŞ, SENS, ETAXİ | 2011 | ÜST, Qlobal Fond |
| 1.2. | Vərəm xəstələrinin vahid elektron registri və məlumat bazasının yaradılması | SİM, ETAXİ | 2011 | Ədliyyə Nazirliyinin tibb xidməti |
| 1.2.1 | Vərəmlə xəstələnmənin monitorinqinin təmin edilməsi məqsədilə kompüter proqramının tətbiq edilməsi | SİM, ETAXİ | 2011-2015 | |
| **2. Vərəm əleyhinə müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi** | | | | |
| 2.1 | Rayonlararası vərəm əleyhinə tibb müəssisələrinin və vərəm sanatoriyalarının təmiri, tikintisi və təchizatı:<br>- Bakı şəhər 1 nömrəli vərəm əleyhinə dispanser<br>- Gəncə<br>- İmişli<br>- Şəki<br>- Salyan<br>- Prof. Qindes adına Respublika uşaq və yeniyetmələr üçün sümük-vərəm xəstələri sanatoriyası<br>-2 nömrəli vərəm əleyhinə sanatoriya<br>- Yevlax | SOŞİPŞ, TOMM, yerli tibb idarə və müəssisələri | <br><br>2011<br>2011<br>2011<br>2011<br>2012<br>2012<br><br>2012<br>2013 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.2. | Vərəmin dərmana davamlı formalarının diaqnostikası məqsədi ilə mikrobioloji müayinələrin aparılması üçün Naxçıvan MR, Gəncə, Quba, Zaqatala, Masallı şəhər və rayonlarında laboratoriyanın yaradılması və avadanlıqla təchiz edilməsi | ETAXİ, TOMM, yerli tibb idarə və müəssisələri | 2011 | KFK |
| 2.3. | Vərəm əleyhinə müəssisələrin müasir rentgen-flüoroqrafiya aparatları ilə təchizatı:<br>rəqəmli rentgen qurğuları ilə:<br>-Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu<br>- Yevlax<br>- Şəki<br>- Sumqayıt<br>- Gəncə<br>səyyar flüoroqraflar ilə:<br>- Naxçıvan MR<br>- Gəncə şəhəri<br>-Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu | İvəTM | <br><br><br>2011<br>2011<br>2011<br>2012<br>2014<br><br>2012<br>2012<br>2012 | |
| | **3. Vərəmin profilaktikası, diaqnostikası və müalicəsi** | | | |
| 3.1. | Uşaq və yeniyetmələr arasında vərəm xəstəliyinin profilaktikası məqsədi ilə tibb müəssisələrinin tuberkulinlə təminatı | İvəTM, yerli tibb idarə və müəssisələri | Mütəmadi | |
| 3.2. | Mikrobioloji laboratoriyaların zəruri reaktiv və ləvazimatlarla təchizatı | İvəTM, yerli tibb idarə və müəssisələri | Mütəmadi | Qlobal Fond |
| 3.3. | Vərəm əleyhinə tibb müəssisələrinin dərman preparatları ilə davamlı təminatı | İvəTM, ETAXİ | Mütəmadi | Qlobal Fond |
| 3.4. | Vərəmin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | İSİM, ETAXİ | 2011-2015 | ÜST |
| 3.5. | Referens laboratoriyasında dərmanlara davamlı vərəmin erkən diaqnostikasının təmin edən molekulyar-genetik metodların tətbiq edilməsi | ETAXİ | 2011-2012 | |
| | **4.Kadr hazırlığı** | | | |
| 4.1. | Vərəmin profilaktikası, diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması (o cümlədən xarici ölkələrdə) | KETŞ, BƏŞ, ADHTİ, ATU, ETAXİ | 2011-2015 | ÜST, Qlobal Fond |
| 4.2. | Vərəmlə mübarizə üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ, ETAXİ | 2011-2015 | ÜST, Qlobal Fond |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4.3. | İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün vərəmin aşkarlanması və müalicəsi üzrə treninqlərin təşkili | ETAXİ | 2011-2015 | ÜST, Qlobal Fond |
| 4.4. | Vərəm əleyhinə xidmətdə çalışan mütəxəssislər üçün təlim proqramlarının hazırlanması və tətbiqi | ETAXİ | 2011-2012 | ÜST, Qlobal Fond |
| | **5. Vərəmlə mübarizəyə dair maarifləndirmə** | | | |
| 5.1. | Vərəmlə mübarizəyə dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | ETAXİ, İSİM | 2011-2015 | ÜST, Qlobal Fond |
| 5.2. | Kütləvi informasiya vasitələri ilə vərəmin profilaktikasına dair məlumatların verilməsi | Mətbuat xidməti, ETAXİ | 2011-2015 | |